*Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin Xatirə Kitabı Redaksiyası “Bakı-xəbər” qəzeti ilə birgə layihə əsasında “Şəhidlər ölməz, Vətən bölünməz” seriyasından bədii-publisistik kitabların nəşrini davam etdirir. Vətənimizin bütövlüyü, bölünməzliyi, müqəddəs torpaqlarımızın-doğma Qarabağımızın erməni işğalından azad edilməsi uğrunda şəhid olmuş övladlarımızın keçdiyi şərəfli ömür yolunu əks etdirən bu kitablar onların xatirəsini yaşadan, ucaldan ən gözəl abidədir.*

*Respublika Xatirə Kitabı Redaksiyasında nəşr olunan nəfis tərtibatlı, rəngli şəkillərlə, unudulmaz xatirələrlə süslənmiş bu kitabları tanınmış publisistlərimiz qələmə alırlar.*

*Ümid edirik ki, “Şəhidlər ölməz, Vətən bölünməz” seriyasından çap etdiyimiz kitablar hər bir məktəblinin, hər bir Azərbaycan gəncinin stolüstü kitabı olacaq. Redaksiyamız bu arzuyla, bu ümidlə uzun, çox uzun bir səfərə çıxıb. Bu yol bizi yurdumuzun hər qarışında uyuyan şəhid oğullarımızın böyüyüb boya-başa çatdığı ünvanlara aparır.*

*Bu seriyadan nəşrə hazırladığımız növbəti kitabımız Azərbaycan Milli Qəhrəmanı Füzuli Rüstəmovun həyat və döyüş yoluna həsr olunub.*

**Nəzakət Məmmədova,**
**Respublika Xatirə Kitabı**
**Redaksiyasının baş redaktoru**

# AĞRININ YADDAŞ ÖMRÜ

“İgid ömrü” kitabının adına “əlyazma” dediyimiz hələ qara-quradan təmizlənməmiş kompüter nüsxəsini vərəqləyirəm.

Kitabın müəllifi Nəzirməmməd Zöhrablıdır. Kifayət qədər ədəbi təcrübəsi və yazdığı, yaratdığı əsərləri ilə dəyərli yazı yolu keçib. Bir neçə kitabı ilə özünü ifadə imkanlarını göstərib.

Mən Nəzirməmmədin yazı taleyində təbiətindən gələn əsas rənglər kimi onun sözə məsuliyyətli yanaşmasının rolunu xüsusi qeyd edərdim. Ölçülü-biçili söz içində mükəmməl fikir ifadə etmək, dəqiq obraz yaratmaq onun əsas yazı üslubudur. Və “İgid ömrü” kitabının ilk əlyazma nüsxəsini vərəqlədikcə bunu aydınca hiss edirəm.

“İgid ömrü” ifadəsi bu gün çox işlənən bəlkə də, qədərindən artıq çözülən iki ayrı-ayrı sözün birliyində ehtiva olunan məna ilə bizə (oxucuya) orjinal səs kimi gəlib çatır. Bu da Nəzriməmmədin sözə yanaşmasının, həm də özünəxas yanaşmasının təsdiqi kimi görünür.

Gül ömrü, bülbül ömrü və igid ömrü... Deyəsən, sırada bir doğmalıq var. əsər odur ki, adı ilə ayrı-ayrı epizodları ilə sözə gətirdiyi hadisələrlə oxucunun yaddaşında bir oyanış yaratsın. Oxucu yaddaşına od vursun. Elə ilk səhifələrdən sonra artıq özümü bu odun içində gördüm. Deyəsən, hansısa bir dastanın Nəzirməmmədin “İgid ömrü” kitabı ilə birgə oxuyurdum...

Dastan qəhrəmanı idealının sorağı ilə səfərə çıxır. İnadlıdır yolunda, inamlıdır idealına çatacağına... keçilməzlikləri arxada qoyur. Qarşısına çıxan şər qüvvələrlə döyüşür. İnadına və inamına güvənən gücü ilə məqsədinə sipər olanları yenir.

Tale onu gözünü ovlayan, ruhunu tovlayan sınaq obrazı ilə üz-üzə gətirir. Dastan qəhrəmanı qayğıdan xali olur, günü xoş keçir. Amma bir gün ona qadağan olunmuş bahar bağına girir. Güllər açılıb gəl-gəl deyir, bülbül nəğmələri ilə gülləri oxşayır. Bir budaqda oxuyan bülbül nəğməsini yanıqlı-yanıqlı ötür. Və nəğməsinin sonunda özünü qabaq tərəfdə qaramıx kolunun içindən boy verən qızılgülün təzəcə açılmış qönçəsinə çırpır. Bayaq ha... demə nə oldu, qönçəyə qovuşmaq üçün can atan bülbül qaramıxın neştər kimi tikanına sançılır. Dastan qəhrəmanı qaramıxa sancılmış bülbülün yan üstə düşmüş cəsədinə çatanda onun dimdiyindən qan süzürdü. Gör tale onu nə ilə qarşılaşdırır, necə sınağa çəkir: Öz idealına yetmək üçün bülbül özünü ölümə necə verdi.

Dastan qəhrəmanının yatmış duyğuları dilə gəldi. Səssiz harayla onu məramına doğru səslədi. Onun duyğuları artıq özündən öndə gedirdi. Qətiyyən ənənəvi bir yazı yazmaq niyyətində deyiləm. Əgər ənəvi yolun icrasını əsas götürsəm, onda bu kitabın hansı layihə ilə ərsəyə gəldiyini Birinci Qarabağ savaşının faciə miqyasını, “Xatirə kitabı” redaksiyasının “Bakı xəbər” qəzeti ilə birgə əməlinin dəyərindən də danışım. Xocalıda yaşamış Füzuli Salah oğlu Rüstəmovun tale yoluna işıq tutan müəllifin kimliyi haqqında söhbət açım... buna lüzum görmürəm. Çünki bu faktların hamısını oxucu elə kitabın ilk səhifələrindəcə görəcək. Bircə onu deyirəm ki,şərəfli əməl bütün zamanlarda təqdir olunur, çünki bütün zamanlar üçün dəyərlidir. Və “İgid ömrü” kitabının yazılmasını da müasirlərimizin - əlbəttə, qədirbilən müasirlərimizin çətin zaman arasında cəfakeşlik xidmətinin bəhrəsi kimi görürəm.

Axı dedim ki, belə kitablar üçün, daha doğrusu məlum mövzuda kitablar üçün ənənəvi dəsti-xətti qorumaq fikrində deyiləm. Birinci səbəb də odur ki, məlum mövzuda yazılan kitabların stereotiplərini Nəzirməmməd özü də qəbul etməyib. Bəs Nəzirməmmədin yanaşmasına hansı adı vermək olar? Müşahidələrimin nəticəsi ... bu canlı roman üslubudur. Artıq son dövrlərdə nəsrimizdə özünü göstərən postmodern forma axtarışları ilə təzahür edən yanaşmadır. Bu yanaşmada zaman şərtidir; müəllif bizdən uzaq tarixlə bir qərinə bundan əvvəlki zamanı məntiqi ilə bağlayır. Və bu günümüzü bir qərinə bundan əvvəlki dövrə aparır. Şah İsmayılın gecəni yata bilməməsi epizodu ilə artıq özünü dərk edən bu dünyaya gəlmək üçün ona ayrılmış tale missiyasının mahiyyətini anlayan Füzuli Rüstəmovun düşüncələri arasında bir bağlılıq var.

Oxucu sanki bədii-sənədli filmə baxır: Xudafərin üstündə düşüncələrə dalmış olan Şah İsmayıl otaylı-butaylı Azərbaycanın rəmzi körpünü keçəcəyi anı düşünür. Kadr dəyişir və biz Xocalını görürük: Xocalının bəxtəvər günləri sanki həyat insanın üzünə gülür. Gözümüzün önündən bir gənc keçir. Bu Xocalı ilə boya-boy dünyaya can atan Füzuli Rüstəmovdur.

Əgər bu kitabı canlı roman, sənədli film kimi görürəmsə, gərək bunu da deyim. Oxucu sarsıntısının göz qabarını: Xocalının bir hissəsi - bərban Pirşağı sanatoriyası.

Müəllif o qədər sərrast, dəqiq yanaşma ilə sözü başlığa gətirir ki, oxucuda həqiqi film təəsüratı yaradır: Füzuli əsl Xocalını axı görmüşdü. İndi o əsl Xocalının bərbad... viranəyə dönmüş xaniman mənzərəsi ilə necə barışa bilərdi.

Kadrlar sürətlə dəyişir... Müəllifin qeyd etdiyi kimi “Xocalı gecəsi hamı canının hayında olanda, o, dördüncü, beşinci, bəlkə də altı-yeddinci dəfə



ürəyindən çıxara bilmədiyi Xocalıya tərəf - həm də ümidsiz, çar-naçar yollara səpələnmiş Xocalıların harayına qayıdır, köməksiz həmyerlilərinə bələdçilik edir və öz əbədiyyətini elə bu gecənin zülmətindəcə yaxınlaşdırırmış”. Bircə cümlənin özü içərisinə yığdığı enerji ilə canlı romanın təəssüratını təmin edir.

Müəllif ayrı-ayrı düşüncə elementlərini cümləyə çevirərək oxucuya bütöv kadrlar təqdim edir: Füzulinin dilindən “Xəstəxanada qalmıram, ermənilər gecə kəndə hücum edər”, yaxud, milli qəhrəman Füzuli Rüstəmovun, Fiqurə xanımın “Qaldıq ata-anasız ana babamın himayəsində” adı ilə səslənən cümlələri başlığa gətirir bununla da filmə baxışın mahiyyətini - başqa sözlə, marağını təmin edir. Ailənin Xocalıda cəmlənməsi Xocalının bu ailənin ruhunda doğma yurd obrazı burada özünü dərk məqamına çatmış Füzuli Rüstəmovun cəsurluğunun hələ kinin, qəzəbin, qərəzin döyüşə çevrilmədiyi vaxtlarda bizə yağı niyyəti ilə fürsət gözləyən ermənilərin diqqətini cəlb edir. Müəllif qəhrəmanı kadr-kadr böyüdür. Şəkil-şəkil ərsəyə yetirir. Hissiz, duyğu-duyğu ona can verir. Əlbəttə, bu boy artımı ilə onun bitibtükənməyin Vətən sevgisini əsas götürür. Çünki müəllif Füzulini anadangəlmə qəhrəman kimi qavrayır. Söz yox, əsərin caanlılığını təmin edən cəhətlərdən biri də Füzulinin son anlarını gözləri ilə görmüş şahidlərin - doğmaların təəssüratlarıdır. Bu yöndə onun xalası Səkinəni danışdırması yerinə düşür. Biz Səkinə obrazının timsalında ana obrazını qavraya bilirik. Ümumiyyətlə bu kitabda görünən kadrların əsas obrazları kimi gözümüzün önündən keçənləri asanlıqla unuda bilmirik. Çünki müəllif özü də onların həsrət dağlarını birəl-birəl gəzə bilir. Onların ağrı-acılarını öz varlığına yığır. Müsahibələr o qədər canlı, o qədər təsiredicidir ki, biz istəsəkdə, istəməsək də yaddaşımızda özünə yer eləyir.

Əsərin ikinci bölümü Xocalı mənzərəsini əhatə edir. Xocalının həmin günlərini görmək üçün Nəzirməmmədin qələmi kifayət qədər təsvir imkanlarına malikdir. Və bunu oxumaq bəs edir. Xocalıda gebosidi törədənlərin qeyri-insani əməlləri Xocalı uğrunda vuruşanların, dövrün şahidlərinin dili ilə ifşa olunur.

Xocalı dəhlizi, faciənin qanlı günləri. Füzulinin sınmayan iradəsi, düşmən önündəki mətinliyi... Azərbaycanlı xarakterinin ən qabarıq cizgiləri kimi yazıya gətirilir.

Müəllif yeri gəldikcə nəslin tarixinə ekskurs edir. Füzulinin babası Kərim kişinin obrazı xatırlanır. Onun təpərli bir insan olmağı, bir kəlmə sözü ilə qan bağlamaq gücü təsadüfü xatırlanmır. Bununla müəllif Füzulinin təbiətindəki qəhrəmanlığın genetik yaddaşına işıq salır.

Müəllif Xocalı ilə Füzuli obrazını əsər boyu birgə aparır. Hadisələrin qana-qırğına doğru yolunu xocalının qara günləri ilə müşaiət edir.

Füzuli evin tək oğlu idi. Müdafiəni təşkil edənlər, Xocalı iradəsini qorumağa çalışanlar əvvəllər Füzuliyə qıymırmışlar, ancaq Füzuli döyüş yolunu özünün mənəvi, daxili tələbatı kimi seçmişdi. Müəllif bu seçimi sərrast, aydın epizodlarla əlaqələndirə bilir.

Əsərin qan donduran, ürək dağlayan səhnələri az deyil, müəllif bu səhnələrdən birini elə belə bir başlıqla təqdim edir: “Qar-sazağın içində kəsilən sonuncu ümid...” Nəyisə açmağa, hadisənin məkanını təfərrüatı ilə verməyə lüzum qalmır. Çünki başlığın özündə məkan da var, zaman da var, ən başlıcası faciənin real səhnəsi var. Müəllif canlı romanın oxucu ilə ünsiyyətini səriştəli müsahibələri ilə təmin edir. Müsahibələr o qədər həyati və təəssüratlıdır ki, biz özümüzü də həmin məqamların iştirakçısı kimi görürük.

“İgid ömrü” əsərinin çox maraqlı bir vəziyyəti də var. Bu təzadların kəskinliyi ilə sözə gətirilməsidir; Füzulinin etibarından, onun sözübütövlüyündən söz açılır və birdən-birə düşmənin əclaflıq, şərəfsizlik səhnəsi göstərilir.

*(Davamı var)*

***Əli Rza XƏLƏFLİ,***
***şair-publisist***